# Rumıniya Parlamentinin Deputatlar Palatasının Sədri Azərbaycana rəsmi səfərə gəlib

Rumıniya Parlamentinin Deputatlar Palatasının Sədri İon-Marçel Çolako fevralın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini Adil Əliyev, Azərbaycanın Rumıniyadakı səfiri Hüseyn Nəcəfov, Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Azay Quliyev və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 28 fevral.- S.4.